# «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli, 782 nömrəli Fərmanına dəyişiklik edilməsi və «Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli, 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı»na əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli, 965 nömrəli Fərmanının qüvvədən düşmüş hesab edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli, 782 nömrəli Fərmanı ilə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 9, maddə 555; 2003-cü il, № 3, maddə 153, № 10, maddə 570; 2005-ci il, № 2, maddə 69, № 4, maddələr 301, 307, № 8, maddə 721, № 10, maddə 919, № 12, maddələr 1104, 1117; 2006-cı il, № 7, maddə 591, № 9, maddə 743; 2006-cı il, № 11, maddə 945, № 12, maddə 1057; Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 29 iyun tarixli, 605 nömrəli Fərmanı) təsdiq edilmiş «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri»nin (Əlavə № 2) 31-ci və 32-ci bəndlərində nəzərdə tutulmuş fəaliyyət növlərinin adları aşağıdakı redaksiyada verilsin:

> *«31. Gömrük brokeri, gömrük daşıyıcısı, gömrük ərazisində malların emalı və gömrük ərazisindən kənarda malların emalı fəaliyyəti*
>
> *32. Gömrük anbarlarının, müvəqqəti saxlanc anbarlarının, sərbəst anbarların və rüsumsuz ticarət mağazalarının təsis edilməsi».*

2. «Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli, 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin Siyahısı»na əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli, 965 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 570) qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 6 avqust 2007-ci il***

***№ 611***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (7 avqust 2007-ci il, № 173) ( «VneshExpertService» LLC).***

***Azərbaycan Respublikasının Qanunvericilik Toplusunda dərc edilmişdir (31 avqust 2007-ci il, № 8, maddə 759) («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*